# “NAXÇIVAN” UNİVERSİTETİNDƏ KİTAB TƏQDİMATI

**“Naxçıvan” Universitetinin elmi kitabxanasında dosent Ceyhun Mahmudovun və iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylunun “Sosial iqtisadi inkişafın proqnozlaşdırılması” kitabının təqdimatı olub.**

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbirdə çıxış edən universitetin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva müəllifləri təbrik edib, kitabın elmi əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, universitetin fəaliyyətə başlamasının 20 illiyinə həsr olunmuş kitab dərs vəsaiti kimi tələbələr üçün qiymətli xəzinədir.

Sonra universitetin İdarəetmə fakültəsinin dekanı Naim Cahidzadənin, Naxçıvan Dövlət Universitetinin dosenti Mehdi Bağırovun və “Naxçıvan” Universitetinin İdarəetmə kafedrasının müdiri, dosent İradə Bağırovanın kitab haqqında fikirləri





dinlənilib. Çıxış edənlər bildiriblər ki, dərs vəsaitində bazar iqtisadiyyatının tələblərini nəzərə alaraq ölkəmizdəki proqnozlaşdırma proseslərinə bir çox cəhətdən yeni baxış öz əksini tapıb. Proqnozlaşdırmanın əsas forma və metodları milli iqtisadiyyat, regional və ən vacib sahələr səviyyəsində nəzərdən keçirilib. Bu dərs vəsaiti tələbələrə minimum sayda istifadə edilə biləcək elmi ədəbiyyat mənbəyi olan “Sosial iqtisadi inkişafın proqnozlaşdırılması” fənninin mənimsənilməsinə imkan verən əlavə mənbə kimi ərsəyə gətirilib.

Sonda müəlliflər çıxış edərək dərs vəsaitinin dərc olunmasında göstərilən dəstəyə görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



İki sahil.- 2019.- 28 dekabr.- S.11.